AZƏRİNŞAAT
“Azərinşaatservis” MMC
Azərbaycan, Bakı, AZ 1108, Dərnəgül qəs., 11-ci Dağlıq k., 3105
Tel.: (+994 12) 447 70 03 (04) Faks: (+994 12) 565 04 54
www.azerinsaat.com

**PRES RELİZ**

# “Azərinşaatservis” MMC Bakı-Quba-Rusiya sərhədi avtomobil yolunun km 6-16 hissəsinin tikintisini oktyabr ayında başa çatdıracaq.

*“Azərinşaatservis” MMC*
*Bakı, Azərbaycan*
*2009/08/12*

“Bakı-Quba-Rusya Federasiyası dövlət sərhədi avtomobil yolunun km 6-16 hissəsinin yenidənqurulması” layihəsi çərçivəsində tikinti işlərini sürətlə davam etdirən “Azərinşaatservis” MMC bu ilin oktyabr ayında yolu istifadəyə tam hazır şəkildə təhvil verəcək.

“Azərinşaatservis” MMC ümumi uzunluğu 208 km olan Bakı-Rusiya Federasiyası dövlət sərhədi avtomobil yolunun yenidənqurulması layihəsi çərçivəsində, bu yolun km 6-16 hissəsinin və km 89-109 hissəsinin tikintisini həyata keçirməkdədir.

“Bakı-Quba-Rusya Federasiyası dövlət sərhədi avtomobil yolunun km 6-16 hissəsinin yenidənqurulması” layihəsi çərçivəsində tikilən ana yolun uzunluğu 10 km, yan yollarla bərabər yolun ümumi uzunluğu isə 14,5 km-dir. Yolun əsas hissəsi 6 hərəkət zolağından ibarət olsa da 12-ci kilometrdən sonrakı hissə 8 hərəkət zolağından ibarətdir. Avtomobil yolunun eni əksər yerlərdə 30,5 m olaraq inşa edilir. Ümumilikdə bu layihə çərçivəsində 7 avtobus dayanacağı, 2 piyada keçidi və 1 yeni körpünün inşa edilməsi, 3 körpüdə isə yenidənqurma işlərinin aparılması nəzərdə tutulumuşdur.

Layihəyə əsasən inşa edilməsi nəzərdə tutulan yeni Masazır körpüsünün tikintisi tam başa çatdırılmış və iyul ayının 23-də istifadəyə verilmişdir. Körpünün açılış mərasimində iştirak edən Azərbaycan Repsublikasının Prezidenti İlham Əliyev Bakı-Rusiya avtomobil yolunun bu hissısinin tikintisi ilə maraqlanmış, öz təklif və tövsiyyələrini vermişdir. Məhz bu tövsiyyələri də nəzərə alan Azərinşaatservis MMC işin daha da sürətləndirilməsi istiqamətində ciddi tədbirlər görmüş, Bakı-Sumqayıt istiqamətində hərəkət zolaqlarının sayının 2-dən 3-ə artırılması istiqamətində fəaliyyətə başlamışdır.

Hazırda bu istiqamətdə km 6+800 ilə km 10+230 arasında üşüncü hərəkət zolağının salınması üçün yolu genişləndirmək məqsədiylə torpaq işləri görülür. Artıq torpaq işləri başa çatdırılmaqdadır. Tezliklə asfatl işlərinə başlanacaq.

Ümumilikdə isə yolun əsas hissəsində asfalt işləri tamalanıb, yol xətləri çəkilib və yolun kənarları boyunca yol kənar təhlükəsizlik sədləri quraşdırılıb. Yolun 10-cu kilometrə qədər olan hissəsində isə layihəyə uyğun olaraq yol nişanları və informativ lövhələr quraşdırılıb.

Layihə üzrə nəzərdə tutulan asfalt işlərinin ümumi həcmi 201 097 ton, torpaq işlərinin ümumi həcmi isə 588 000 m3-dir.

Azərinşaatservis MMC-nin həyata keçirdiyi “Bakı-Quba-Rusya Federasiyası dövlət sərhədi avtomobil yolunun km 6-16 hissəsinin yenidənqurulması” layihəsini Çexiya İxrac Bankı maliyyələşdirir. Layihənin sifarişçisi Azərbaycan Respublikası Nəqliyyat Nazirliyidir. Hazırda layihə çərçivəsində nəzərdə tutulan işlərin təxminən 80 %-dən çox hissəsi başa çatdırılıb. İcrasına 2006-cı ilin dekabr

ayından başlanan bu layihənin Azərinşaatservis MMC tərəfindən bu ilin oktyabr ayında istifadəyə tam hazır şəkildə təhvil verilməsi nəzərdə tutulub.

*2003-cü ildə qurulan "Azərinşaatservis" MMC Azərbaycanda və Qafqaz regionunda yol və dəmiryolu tikintisi sahəsində aparıcı şirkətlərdən biridir. Yüksək keyfiyyətli xidmətlər göstərən Şirkət, əsas fəaliyyət dairəsi olan avtomobil və dəmiryolu tikintisində A-dan Z-yə bütün növ xidmətləri öz imkanları hesabına həyata keçirir.*

***Mətbuat üçün əlaqəli şəxs:***
**Kənan KƏRİMLİ,** İctimaiyyətlə Əlaqələr və Mətbuat Meneceri
**Tel.:** (+994 12) 447 70 03 (04)
**Mob.:** (+994 55) 208 20 87, (+994 50) 255 38 86
**E-mail**: k.karimli@azerinsaat.com
**www.azerinsaat.com**